İNDİKİ ZAMANDA İNSANLARI
İDARƏ ETMƏK ÜÇÜN TACA
EHTİYAC YOXDUR.
BAŞINDA AĞIL OLSA KİFAYƏTDİR!

# ALLAHSIZLAR ŞƏHƏRİ

# URAQAN

(Emin Abdullayev)

URAQAN EMİN ABDULLAYEV. ALLAHSIZLAR ŞƏHƏRİ
("NAĞILLAR KİTABI"NDAN BİR PARÇA)

REDAKTOR:
NİZAMİ HÜSEYNOV

NAŞİR:
SƏBUHİ ŞAHMURSOY

KORREKTOR:
AYSEL SƏFƏRLİ

TEXNİKİ REDAKTOR:
EMİN ABDULLAYEV

DİZAYN VƏ QRAFİKA:
TAMERLAN İSMAYILZADƏ
GÜLNAR İSMAYILOVA

ÜZ QABIĞI RƏSSAMI:
MARK ALLANTE

ÇAPA İMZALANIB:
10.02.2020

"XAN" NƏŞRİYYATI. BAKI-2020. 100 SƏH.
ISBN: 9005349532909

"XAN" NƏŞRİYYATI / 2020

XAN NƏŞRİYYATI

***Müəllif hüquqları qorunur. Müəllifin razılığı olmadan kitabın təkrar nəşri və əsər əsasında film çəkilişi qəti qadağandır! Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan respublikası qanununa ziddir.***


## *Müəlliflə əlaqə:*

**Wattpad:**
URAQANABDULLAYEV

**İnstagram:**
URAQAN.EA

**Facebook:**
EMİN.ABDULLAYEV.5

# XÜSUSİ MİNNƏTDARLIQ...

## OL Teatr

*Əsərin ərsəyə gəlməsində Ol teatrnın rəhbərliyi*

*Namiq Ağayev, Ramin Asimoğlu*

*Və Fikrət Məmmədova*

*Dərin Təşəkkürlər.*

*“Allahsızlar Şəhəri” kitabı üçün rəsmləri istifadə olunan dəyərli aktyorlarımıza sonsuz təşəkkürlər...*

## ***<u>Bölüm 1.1.</u>***
## *Ölüm Dükanı*



Ölüm dükanda oturub siqaret, içki, nəşə və digər pis vərdişlərə səbəb olacaq mallar satırdı. Bunu görən Əyyaş onun dükanına yaxınlaşaraq dedi:

– Zəhmət olmazsa, 1 qutu siqaret ver.

Ölüm Əyyaşa baxdı:

– Hər siqaretə görə həyatından 10 dəqiqə almalı olacağam.

Əyyaşa bir siqaret çox baha göründü:

– Yox, atacağam bu zəhrimarı.



– Nə vaxt atacaqsan? - Ölüm maraqla soruşdu, – Artıq ömrünə çox az qalıb, mən nisyə dəftəri ilə işləmirəm. Vaxtın bitən kimi səni də aparacağam.



– Az danış, bir şüşə araq ver!

– Araq üçün 2 ay ödəməlisən.

– Nəyə görə bu qədər bahalaşdırmısan?

– Əslində, hər zaman bu qədər baha olub. Ömrünün axırlarını yaşadığın üçün xərcləməkdə çətinlik çəkirsən.

– Çox bahadır, 2 ay verə bilməyəcəyəm.

– O zaman başqa təklifim var. 2 ayı sənin üçün bir az da azaldaram, hətta çox azalda bilərəm. Bunun üçün hamısını içməməlisən. 1 qurtum verəcəyəm.

– Bəs bir qurtumun dəyəri nə qədərdir?

– Bir qurtum içsən, ödəniş etməyə ehtiyac olmayacaq.

Ölümün təklifi məntiqli olsa da, Əyyaş onunla razılaşmadı:

– Yox, ödəniş edəcəyəm. 1 aya nə qədər düşürsə, o qədər ver.

Ölüm şüşənin yarısını boşaldıb yaşlı Əyyaşa uzatdı. Kişi yarımçıq şüşəni götürüb təəccüblə soruşdu:

– Bəs ödənişi götürməyəcəksən?



– Yox, ödənişi içdikcə edəcəksən.

Əyyaş o anda Ölümün nə dediyini anlaya bilmədi. Bir qırağa keçib yarım şüşə arağı içərək bir aylıq həyatını bir az da qısaltdı. Təəssüf ki, yarım şüşə araq da Əyyaş üçün çox imiş. Bu məbləği ödəyə bilmədiyi üçün sakitcə gözlərini yumdu. O əbədi olaraq oturduğu yerdən qalxa bilməyəcəkdi.

Ölüm ölmüş Əyyaşa baxıb gülümsəyərək növbəti müştərinin gəlməsini gözlədi.



## 1.2. *Ölüm Dükanı*

Çox keçməmiş içəri bir nəfər də daxil oldu. Bu adamın nəyəsə asılılığı olduğu gözlərindən hiss olunurdu. Ölmüş Əyyaşın yanından keçərək Ölümə yaxınlaşdı:



– Mənə narkotik lazımdır. Kimyəvi olanından ver.



Ölüm adamın halına acıyırmış kimi sifət aldı:

– Onu verərəm. Amma de görüm, bunu çəkməyə səni kim vadar edir?



– Tamah adında bir dostum var. Məni kimya ilə tanış etdi, onun sayəsində içimdəki İştahı kəşf etdim. Mənim adım Nəfs.



– Bəs sevdiyin qadın hanı? O niyə sənə kömək etmir?

– Sevdiyim qadın uzun zamandır ki, məni tərk edib gedib. Onun adı İradə idi. Bu zəhrimarı buraxmaq üçün çox mane olmağa çalışdı, amma bacarmadım. Və o məni atıb getdi. Görürsən, qadınlar bu cür vəfasızdır.



Ölüm heç nə demədən kimyəvi maddəni ona uzatdı. Narkoman əlini atıb onu götürdü. Fəqət anlaya bilmədi:



– Dayan bir dəqiqə. Bunu ödəməyə pulum yoxdur.

Ölüm əvvəlcə ah çəkdi, sonra dedi:

– Boş ver, mən pul ilə işləmirəm. Mənim dəyər verdiyim şeyin adı Zamandır.

Narkoman əlində saxladığı maddəni götürüb keçib bir küncə əyləşdi. Onu indiki dünyasından heç kim ayıra bilməyəcəkdi.

## 1.3. Ölüm Dükanı

Bu zaman hər kəsdən və hər şeydən təngə gəlmiş bir nəfər Ölümün dükanına daxil oldu. Əsəbi halda soruşdu:

– Nə satırsan?

Ölüm adamı tanımadı:

– Bura bax, sən kimsən belə?



– Adım Həqiqət. Vəzifəm insanlara həqiqətləri çatdırmaqdır. Sən məni yaxşı tanımalıydın. Axı ən böyük həqiqət elə sənsən.

Ölüm başa düşsə də, özünü axmaq kimi aparırdı. Satdığı malları təqdim edərək bildirdi:



– İnsan həyatını qısalda biləcək hər şey, – gülümsəyib bir siqaret uzadaraq, – Bir qutu al, çəkərsən.

*Həqiqət siqaret qutusunu əlinə alıb üzərinə yazılanları oxudu:*

***"Öldürür! Siqaret çəkmək sağlamlığınıza ziyandır."***

Bu sözün hansı məqsədlə yazıldığını anlaya bilmədi. Satıcının insanları aşağılaması onu daha da əsəbiləşdirirdi.

Qutunun üzərinə baxaraq soruşdu:

– Öldürürsə, niyə satırsınız?

Ölüm əsəbiləşərək:

– Bu suallara cavab mənim işim deyil. Xidmətimizdən narazısansa müştəri xidmətlərimizi çağıra bilərəm.

Üzünü çevirib içəri boylanaraq qışqırdı.





Çox keçmədən Şeytan çıxdı və soruşdu:

– Bu kimdir, nə istəyir?

Həqiqət özünü saxlaya bilməyib sualı təkrar verdi:

– Soruşuram, ziyandırsa, öldürürsə niyə satırsınız?

Şeytan üzünü Ölümə tutaraq pıçıldadı:

– Milyon dəfə demişəm belə həyasızlara cavab vermə. Qovmaq lazımdır bu cür demoqoqları.

Yenidən Həqiqətə tərəf çevrilərək təmkinlə cavab verdi:

– İstəmirsənsə alma, daha bizim bazarımızı niyə öldürürsən? – deyərək Həqiqəti oradan qovdu və üzünü insanlara tutaraq gülümsədi:

– Kimsənin sizə nə dediyinə əhəmiyyət verməyin. Öz həyatınızı yaşayın. Heç kimin sizi dəyişdirməsinə icazə verməyin.

Ürəyində düşünsə də, demədi:

– Hətta mənim də...



## ***Bölüm 2.1.***

## *Həqiqət Axtarışlar*



Şeytanın çox saylı zəng və xahişlərindən sonra Həqiqətin əl-qolu bağlandığı üçün getdiyi bütün dükanlardan məsxərəyə qoyulub aşağılanaraq qovuldu. Beləcə səfil vəziyyətə düşüb illərlə süründü. Gizləndi hər kəsdən. Qorxu ilə yaşamağa başladı. O qorxub gizləndikcə insanlar Yalanı sevməyə başlayıb Şeytanla dostlaşdılar. Onlar İradəni və Həqiqəti buraxıb Yalanla evləndilər. Hətta Sevgi də qarıyıb evdə qaldı. İnsanlar sevsələr də, Yalan onların sevgisini daha da şirinləşdirirdi. Beləcə onlar Eşq ilə sevgili olub onunla evlənmək əvəzinə Yalanla saziş bağladılar.

Bu o vaxta qədər davam etdi ki, Yalanın iç üzü açıldı. Bu zaman hər şey çox gec idi. Hər şeyin üstü açılanda insanlar Yalana nifrət etsələr də, çılpaq Həqiqəti də qəbul edə bilmirdilər. İnsanlar tək olanda çılpaq olmağı sevirlər. Çılpaq olanları da yalnız tək olanda seyr edirlər. Həqiqət də çılpaq olur. Ona görə də kütlədə onun üzünə heç kim baxmır.

Həqiqət anladı ki, insanlar həqiqətlərdən qorxub çəkinməyə başlayıblar. Özü də hiss edirdi ki, içindəki qorxu onu da ələ keçirməyə başlayıb. Həqiqət Qorxularla birlikdə yaşaya bilməyəcəyini anlayıb onun mağarasına getdi. Burada hər şey çox vahiməli görünürdü. O, Qorxunu görən kimi susdu. Danışa bilməyəcəyini anladı.



Həqiqətin qorxduğunu görən Qorxu danışmağa başladı:

– Niyə gəlmisən?

– Gəldim ki, səninlə danışa bilim.

Qorxu növbəti sualı verdi:

– Hansı cürətlə?

– Axı nəyə görə insanlara mane olursan? Sənə görə onlar hərəkət edə bilmirlər.

– Heç nəyi başa düşmürsən. Mən olmasaydım, insanlıq çoxdan məhv olub getmişdi, – əli ilə yer göstərərək sözünə davam etdi, – keç otur, hər şeyi izah edim.

"İnsanlar Qorxunun onlarla birgə yarandığını və onları hərəkət etməyə qoymadığını düşünürlər. Halbuki, yanılırsınız, siz olmamışdan öncə də mən vardım. Bir mən, bir də Güc. Güc kimin yanındaydısa, hakimiyyət də

onda idi. Gücümüz özünü çatdırmayanda qaçıb gizlənməyə məcbur idik. İnsanın babasının, babasının indi xatırlamıram neçənci babası ilk dəfə şirdən qorxub gizlənmişdi. Əgər qorxmasaydı, bu gün nə həmin o meymunsifət insan, nə də bu qədər insansifət meymun olmayacaqdı. İnsanlarla Allah arasında mən varam.

Qorxu sayəsində insanlar həyatda qaldılar. Yoxsa onları vəhşi heyvanlar çoxdan yemişdi. Hətta Güc başqasında olduğu zaman hakimiyyət onda olurdu, onun sözü keçirdi.

Buna görə evlərdə kişilərin sözü keçib. İnsanlar zəriflərin qolunu qırıb "r" hərfini oradan götürüblər. Güc şah idisə, Qorxu onun vəziri idi. İnsanlar qorxduqca düşünməyə başlayırdı, ancaq qorxu olanda hərəkət edirdilər. Ölüm qorxusu onları hər zaman hərəkətə gətirib.



Genlərinizə işləmişəm. Məni çıxarıb ata bilməzsiniz. Ən dar ayaqda hər zaman lazım olacağam. Amma Qorxularla yaşamaqdansa, məsləhətim, get Gücü tap.

Onun söylədiklərinə qulaq as, gör o nələr deyəcək?!"

## 2.2. *Həqiqət axtarışları*



Həqiqət Qorxunu məhv edə bilməyəcəyini anladı. Gücü axtarmağa başladı. Güc böyük sarayların birində təkbaşına oturmuşdu. Hətta başındakı tacını da çıxardıb bir kənara qoymuşdu. Daha bu tac ona lazım deyildi.

Həqiqət Gücün qarşısında baş əyərək ona təzim etdi və dilləndi:

– Güc əlahəzrətləri, köməyinə ehtiyacımız var. Bizə kömək elə!



– Nə köməyim dəyə bilər? Görmürsən daha başımdakı tacı sayan yoxdur deyə mənə təzim göstərmirlər. Daha o tac başqasına aiddir.

Həqiqət onun nə dediyini anlamadı:

– Kimə aiddir?



– Ağıl adında balaca bir uşağa. Amma bu tacdan imtina edərək dedib: “İndiki zamanda insanları idarə etmək üçün taca ehtiyac yoxdur, başında Ağıl olsa kifayətdir.” – Güc məyusluqla davam etdi:

– Artıq şahlıq Ağıldadır. Ona görə də daha dünyanı ən güclülər yox, ən ağıllılar idarə edir. Sistemi düzgün quran Ağıl önə keçir. Daha Gücə ehtiyac yoxdur.

Həqiqət Gücün əvvəlki hökmranlığını yada salaraq dedi:

– Yanılırsan. Gücə ehtiyac var. Sadəcə əsl Gücə sahib olmaq üçün qolumuzun gücünə arxayın olmaq yox, birləşmək lazımdır. Yalnız birləşərək Ağılı tapa bilərik. Həqiqət və Güc birlikdə Ağılı tapmaq üçün yola çıxdılar.

## 2.3. *Həqiqət axtarışları*

Ağılı parkların birində uşaqlarla oynayarkən tapan Həqiqət və Güc gördüklərinə inana bilmədilər. Ağıl öz yaşıdlarından fərqlənməyən 14 yaşında bir uşaq idi.

Güc çaşqınlıqla Həqiqətdən soruşdu:

– Sənə elə gəlmir ki, o bir az balacadır.

Həqiqət təəssüfləndi:

– Bir az yox, xeyli balacadır. Ağıl hələ çox böyüməlidir. Hal-hazırda o, sanki, ağ kağızdır.



Güc dedi:

– Elə isə biz onun üzərində işləməliyik. Amma əvvəlcə yaxınlaşaq görək bu balaca Ağıl nə istəyir?



Güc başındakı tacı çıxardıb Həqiqətlə birlikdə yavaşca balaca Ağıla yaxın gələrək soruşdu:

– Salam, balaca. Eşitdiyimizə görə Ağıl sənsən.



– Bəli, mənəm. Amma sizi tanıya bilmədim.

Güc dedi:

– Kimliyimizi boş ver. Sənin kimi balaca uşağın biri kimliyimi yox edib, bütün ölkəmi əlimdən alıb.

Balaca Ağıl başında tac olmayan krala baxdı:

– Əlinizdəki tacla şaha yox, əsl klouna oxşayırsınız.

– İndiki dövrdə, o kloundan bir fərqim yoxdur. İnsanlar baxıb məni məsxərəyə qoyurlar.

Ağıl anlamadı:

– Bəs mən sizə nə edə bilərəm?

Həqiqət dilləndi:

– Əvvəlcə nə istədiyini de.

Ağıl gülümsəyərək düşünməyə başladı:

– Gəzmək, oynamaq, əylənmək, yemək və yatmaq. Hə, bir də Ölümün çox maraqlı bir dükanı var. Hər kəs oranı tərifləyir. Bir az böyüyüm ora gedəcəyəm.

Bu an Həqiqət əsəbiləşsə də bəlli etmədi:

– Nəyə görə?



– Eşitdiyimə görə, orada elə maraqlı şeylər satırlar. Hələ orada hər kəsin sevdiyi bir şəxs var. O, insanları ruhlandırıb deyir, "nə olursa olsun, öz həyatınızı yaşayın, başqalarının sizi dəyişməsinə icazə verməyin".

– Sən də ona inanırsan?

– Hə. Niyə də inanmayım? Hər kəs ona inanır.

Həqiqət dərindən nəfəs aldı və dedi:

– Bir müddət böyüyəndən sonra hər kəs yanıma gəlir. Aldadıldığından danışır, məni günahlandırır ki, "Həqiqət, hara baxırdın, niyə xəbərdar eləməmişdin? Niyə icazə verdin ki, şirin Yalanlara inanıb acı Həqiqətləri yaxına buraxmayaq."

Ağıl sual verdi:

– Bəs niyə xəbərdar eləməmişdin? Niyə izin verdin ki, onları aldatsınlar?

– Şeytan məni qovdu, heç kim də mənə inanmadı. Gözlərinin önündə ola-ola məni görməkdən çəkindilər.

Ağıl düşünərək sual verdi:

– Bəs indi məndən nə istəyirsiniz?

Həqiqət Ağıla tərəf əyildi və dedi:

– Özün olmağını, hər kəsdən fərqlənməyini və onların yolu ilə getməməyini.

Ağıl sözü çox uzatmadan Həqiqətin dedikləri ilə razılaşdı. Beləcə Həqiqət Ağıl ilə birləşdi, Güc isə onları qorudu. Buna baxmayaraq Qorxu da onları hər zaman təqib edirdi. Onlar Qorxunu dinləsələr də, onu heç bir zaman yaxına buraxmırdılar. Özləri də başa düşürdülər ki, Qorxu ilə olmaz. Amma Qorxusuz da olmaz.

## ***<u>Bölüm 3.1.</u>***

## *Şeytan və Ağıl*



Vaxt keçdikcə balaca Ağıl böyüyüb, yaxşını pisdən ayıra bilən kamil biri oldu. Həqiqət onu tapsa da, birlikdə öz axtarışlarına İnam və Cəsarətlə davam etdilər. Güc də məsələyə qarışaraq Ağılı şəxsiyyət kimi formalaşdırırdı.

Günlərin bir günü Ağılın hazır olduğunu düşünən Həqiqət onunla birlikdə bir yerə getməli olduqlarını söylədi. Gücü də özləriylə götürüb Ölümün dükanına yollandılar.

Dükana çatıb qapıdan içəri girdilər. Şeytan Ağılı görən kimi çox sevindi:

– Nə yaxşı gəlmisən?!



Yanında Həqiqətin dayandığını görüb dedi:

– Nə işin var buralarda? Axırıncı dəfə səni qovmamışdıq ki, "bir daha bura gəlməyəsən?!"



Güc əsəbi halda dedi:

– Qovulmuşdu, amma o vaxtlar yanında biz dayanmamışdıq deyə bunu etmişdiniz.



Şeytan Gücün əsəbləşdiyini görüb onu daha da özündən çıxartmağa çalışdı:

– Güc, nə yaxşı sən də burdasan? Görürəm əvvəllər hakimiyyət səndə idi. İndi Ağılı veriblər qabağa, balaca uşaq sizi idarə edir.

Ağıl üzünü Gücə tərəf çevirdi. Güc Ağıla nifrətlə baxmağa başlamışdı. Ağıl tez ona yaxın gələrək:

– Ona qulaq asma, yoxsa Əsəb gəlib əllərimizə qandal vurub bizi bölməyə aparar.

Güc bunu eşidib geri çəkildi. Artıq burada ona ehtiyac olmadığını anlamışdı. Əlindən bir xəta çıxmasın deyə qapını çırparaq otağı tərk etdi. Həqiqət onu sakitləşdirmək üçün Gücün arxasınca yollandı.

Gücün və Həqiqətin uzaqlaşdığını görən Şeytan Ağıla daha da yaxınlaşdı:

– Ağıl, de görək, sənə necə qulluq edək?

Ağıl Şeytanın bu sözlərini eşidib çox sevindi. O, indi uşaqlıq arzusunun astanasında dayanmışdı. Həqiqətə baxdığı zaman onun üzündəki nifrəti görə bilirdi.

Şeytan asta səslə sözünə davam etdi:

– Amma qulluq edə bilməyimiz üçün Həqiqəti buradan uzaq tutmalısan. Yaşlı nəsil bizləri heç vaxt başa düşə bilməz.

– Onu necə uzaqlaşdırım? Axı bu vaxta qədər o mənə ata kimi olub.

Şeytan Ağılın düşüncələrinə toxundu:

– Özün bilirsən ki, Həqiqətlər hər zaman bizə əzab verib beynimizi yorur. O qədər çox danışır ki, insanın başını ağrıdır. Gəl içəri keçək, kefini dinləndirmək üçün nə lazımdırsa, hamısı bizdə var.

Ağıl bir qədər düşündü. Həqiqətlə birlikdə o qapıdan içəri keçə bilməyəcəkdi. Ona görə də Həqiqəti geridə qoydu. Birlikdə içəri keçərkən Şeytan dedi:



– Əzizim Ağıl, bizə lazımsan! Əslində, hər kəsə lazımsan, amma çox adamda yoxsan.

– Hər kəsdə varam, amma çoxunda heç böyümürəm. De görək, nəyinə lazımam?

– Hakimiyyəti ələ keçirmək üçün. Əgər yanımda olsan, hər şeyin olacaq, qızıl, xoşbəxtlik, vəzifə, bir sözlə, hər şeyə sahib olacaqsan.

– Bəs bunun qarşılığında nə etməliyəm?

– Həqiqətləri yaxına buraxma. Bizim dükanda qal və mənimçün işlə.

Ağıl düşünüb təklifi qəbul edərək son sözünü söylədi:

– Amma satdıqlarımdan istifadə etməyəcəyəm, ancaq satacağam.

Şeytan məqsədinə çatdığını anlayıb gülümsədi:

– Sən istifadə eləmə, Ağıllı adam bunlardan istifadə etməz...



## *3.2. Şeytan və Ağıl*

Həqiqət Gücü geri qaytara bilməyəcəyini anlayıb Ölümün dükanına geri qayıdanda gördüyü biyabırçılıq ağlını başından aldı. Ağıl Şeytanla bərabər süfrə arxasında oturub içkilərdən içir, siqaretdən çəkirdi.

Boğazının suyu quruyan Həqiqət Ağılın etdiklərini görüb heyifsiləndi:

– Neynirsən, Ağıl? Hanı sənə verdiyim tərbiyə?

Ağıl içkili halda Həqiqətə baxaraq gülməyə başladı:

– Düşünüb qərarımı verdim. Hərənin öz həqiqətləri var. Bağışla, ata, bu qapıdan keçə bilməzsən! Xahiş edirəm, çıx bayıra!

Şeytan gülümsəyərək Həqiqətə baxdı:

– Gördün? Bu dəfə mən qovmuram, öz oğlun qovur. Zəhmət olmazsa, bas bayıra!



## *3.3. Şeytan və Ağıl*

Vaxt keçdikcə Şeytan, Ağıl və Ölüm satışa davam edirdilər. Ölüm Şeytanın yanında qalıb işləməkdən məmnun olmasa da, öz ailəsinə çörək aparmaq üçün qalıb Şeytanın yanında işləməyə məcbur idi. Ona görə də o, iş saatlarından əlavə olaraq kuryer xidməti kimi çalışdığından vaxtı bitmiş adamları da, o götürməli idi.



Bəzən vaxtı çatmış adamı götürmək heç də asan olmurdu. Ölüm mərhumun qohum-əqrəbaları ilə dalaşmağa məcbur qalırdı. Bəzən onun özünü söyürdülər. Ölüm Tanrının ona tapşırdığını yerinə yetirirdi. Yoxsa o da xoşlamazdı həyatı doya-doya yaşaya bilməyən uşaqları bu dünyadan aparmağı, gənclərin intiharını və ən əsası özünü kiməsə görə fəda edənləri.

Hər birini ürək ağrısı ilə qəbul edib digər dünyaya apardı. Amma bəzi insanlar da vardı ki, onları aparanda hər kəs çox sevinərdi ki, "çox şükür, Ölüm aldı-apardı, canımız qurtardı" deyərdilər.

Bu zaman Ölüm də özünü faydalı biri kimi görüb çox sevinirdi. Ona görə də Ölüm düşünürdü ki, dünyada pis insan nə qədər çoxalsa, bir o qədər çox adına rəhmət oxunular. Necə ki, cəmiyyət mənfi fərdləri özü formalaşdırıb xəstəlikləri yayırdı ki, həbsxanalar və xəstəxanalar insanlara xidmət göstərsin. Ölüm özü yaxşı başa düşürdü ki, xəstəxanaları inkişaf etdirib pul qazanmaqdansa, sağlam insan formalaşdıra bilsələr, daha faydalı bir cəmiyyət yaratmaq olar.

Bütün bunlar Şeytana lazım deyildi. Ağıl Şeytanın yanında boş vaxtlarında düşünərdi. "Nəyə görə Həqiqəti atdığını?" Axı Həqiqət ona ata kimi idi. Bir atanın övladına öyrətdiyi kimi onu öyrətmişdi. Ağıl ömrünün bir vaxtına qədər yaxşı gəlsə də, Şeytanın təklif etdiyi şeylər onun gözünü tutduğundan Həqiqəti görə bilmirdi.



## *3.4. Şeytan və Ağıl*

Günlərin bir günü dükana bir kişi yaxınlaşdı. Şeytanla qucaqlaşaraq görüşüb salamlaşdılar. Şeytan Ağılı Xəyanətə təqdim etdi:



– Bu Xəyanətdir! O, evli olsa da, Xəyanətindən qalmır. Xəyanətin evləndiyi qadının adı Eşqdir. Eşq onu çox sevir. Xəyanət xanımını həmişə aldadır. Öz qadını bunu eləsəydi onu əxlaqsız sayardı.

Xəyanət üzünü Ağıla tərəf çevirib:

– Şeytan düz deyir. Qadınlar xəyanət etdiklərinə görə namussuz sayılmalıdırlar. Hətta bu məsələdə onların ərləri də cavabdehlik daşıyır. Necə yəni, "kişi olan bəndə hara baxırsan ki, qadının mənimlə min hoqqadan çıxır?!"

Ağıl Xəyanətin dediklərini bir qədər düşündü:



– Xəyanət bəy, bir dəqiqə dayanın. Axı nəyə görə bir qadın xəyanət etdiyi zaman əxlaqsız və namussuz sayılır, amma kişilər bunu etdiyi zaman onun günahına yazılmır.

Xəyanət pörtdü. Onun pis vəziyyətə düşdüyünü görən Şeytan cəld üzünü Xəyanətə çevirərək:



– Ağıldı da. Yenə öz-özünə düşünüb gicgicə nəticələr çıxardır. Böyüdükcə Ağıllanar. - Deyərək söhbəti dəyişdi: – Həə, danış görək, yeni qadınlarla münasibətin necədir?



– Özün bilirsən ki, qadınları başdan çıxarmağı sevirəm. Düzdür, bəzən elələri də olur ki, ilk başda etmək istəmirlər, amma sonra mənə təslim olurlar.

Şeytan bunu eşidib söylədi:

– Çox gözəl! Öz torpaq sahəmdə sənin üçün qəşəng yer hazırlamışam. – Davamını düşünsə də demədi, – "bircə qazanın altını yandırmaq qalır."



Xəyanət Şeytanla şərik olduğundan içəri keçib söhbət etməyə başladılar.

## *3.5. Şeytan və Ağıl*

Vaxt ötdükcə illər bir-birini əvəz edirdi. Ağıl dükanın qabağında dayanıb öz əməllərini düşünürdü. Bu zaman dükana əlində bıçaq tutmuş bir nəfər yaxınlaşdı.



Ağılı görən kimi cəld onun üstünə hücum çəkdi. Amma Ağıl nə olduğunu başa düşməyərək qaçmağa başladı. Əli bıçaqlı bu dəli çox keçmədi ki, Ağılı tutdu. Bıçağı düz onun boğazına dirəyib kəsmək istəyirdi.



Ağıl qaçmağa bir yer olmadığını anlayıb soruşdu:

– Dayanın, siz kimsiniz? Məndən nə istəyirsiniz?

Adam bıçağını bir qədər boşlayaraq dedi:



– Tanımadın hə? Mənəm də, Vicdan. Nə bilmişdin, elə bilirdin səni tapa bilmərəm? İnsanların yaşadığı dünyadan fərqli olaraq buradakıları Allah yox, mən cəzalandırıram. Atan Həqiqətin yaxın dostuyam. Uzun zamandır ki, yanına gəlməyi düşünürdüm.

Ağıl atasının adını eşidib gözləri doldu:

– Atam necədir? Həqiqət hər zaman mənə doğruları öyrədərdi.

– Atan xəstələnib, etdiyin seçimdən sonra çox pis hala düşdü. Nəyə görə belə etdiyini hələ də anlaya bilmir.

– Sadəcə öz Həqiqətimi özüm tapmaq istəyirdim. Azad yaşayıb Həqiqətə özüm çatmalıydım.

Vicdan qışqırdı:

– Bəs, səncə, öz Həqiqətinə çatmısan?

Ağıl dedi:

– Mənim Həqiqətim puldur. Bacardıqca çox pul əldə edib uğur qazanmalıyam.

Vicdan təəccübləndi:



– Yaxşı, əgər belə hesab edirsənsə, qoy belə də olsun. Amma atan dünyadan köçməmiş son dəfə səni görmək istəyirdi. Həqiqətin yanına yaxınlaş, o öldükdən sonra hər şey çox gec olacaq. Yoxsa mən hər zaman sənə əzab verəcəyəm.

Vicdan Ağılı yerə buraxdı. Yenidən əlindəki bıçaqla ona doğru gəlsə də bu bıçağı düz öz qəlbinə soxdu. Ağıl bu ağrını, sanki öz ürəyində hiss etdi.

– DAYAN! Eləmə, dözə bilmirəm bu ağrıya.

Vicdan bunu eşitdi və başını aşağı salıb qapıdan çölə çıxdı.

Ağıl yaralı halda onun arxasınca qapıdan çıxaraq Vicdana son sualını verdi:

– Əgər Vicdan içimizi bu cür sızladırsa niyə içəridəki Xəyanətə də əzab vermirsən?

Vicdan Ağılı yaralayarkən özünü yaralamışdı. Əvvəlki simasından əsər əlamət qalmasa da əlindəki bıçağa diqqətlə baxaraq son sözlərini dedi:



– Çünki bəzi insanlarda yoxam, onlar ruhunu çoxdan Şeytana satıb...

## *3.6. Şeytan və Ağıl*



Vicdan getdikdən sonra içi sızlayan Ağıl uzun bir müddət onunla bağlı düşündü. Vicdan getsə də, sanki, onu tərk etməmişdi. İçini narahat edib dururdu.

Az sonra dükana balaca qız uşağı ilə gənc qadın yaxınlaşdı. Qadın maraq dolu nəzərlərlə əvvəlcə dükanı süzdü, sonra Şəhvətli baxışları ilə Ağıla baxmağa başladı.Qadının gözlərinin parıltısı Ağılın ona yaxınlaşmasına səbəb oldu:

– Bura Ölümün dükanıdır. Dünyanın ən ecazkar dadları bizdə olur.



Ağıl bunu demişdi ki, Qadının yanındakı balaca uşaq ağlamağa başladı:



– Gedək, Atam bizi gözləyir.

Qadın qızına baxaraq dedi:

– Qoy bir az da gözləsin, bura çox maraqlı yerə oxşayır.

Ağıl qarşısındakı qadının kim olduğunu soruşanda qadın cavab verdi:



– Adım Maraqdır. Hər şeylə Maraqlandığım üçün bu adı qoyublar. Bu balaca uşaq da, qızım Ağıldır. "Atam bizi gözləyir", deyərək çox vaxt mənə mane olmağa çalışır. Şifrəmi də ərimə vermişəm ki, mənə inansın. Özüm də yeni hesab açmışam ki, gizlincə istədiyim hər şeyi edə bilim.

Böyük Ağıl qarşısında dayanan Marağa və onun balaca Ağılına baxdı. Qadının Ağılı çox balaca idi. Təəssüflə bildirdi:

– Burada olmamalısınız. Gedin. Ürəyim Vicdanın ikinci bir zərbəsinə dözə bilməz.



– Cavan oğlan, məni niyə qovursan? Sadəcə dadına baxmaq istəyirəm. Ailəmə xəyanət edəcək bir şey heç vaxt etmərəm.

Qadın bunu demişdi ki, Xəyanət və Şeytan içəri otaqdan gülə-gülə çıxıb gəldilər. Ağıl Şeytanı görən kimi susub heç nə deyə bilmədi.




Xəyanət Marağın gözlərinin parladığını görüb ona baxdı və gülümsədi. Ona doğru yaxınlaşdı və dedi:

– Xoş gördük, necə kömək edə bilərəm, sizi nə maraqlandırır?

Maraq, onun istəyini yerinə yetirəcək birini tapdığına çox sevindi. Özünü naza qoyaraq dedi:

– Heyif evli qadınam. Eləmək istədiyim çox şey var. Amma mənə olmaz. İstəklərimin heç birini səninlə ödəyə bilmərəm.

Elə bu zaman onun yanındakı balaca Ağıl qışqırmağa başladı:

– Eləmə, atam bizi gözləyir, gedək evə.

Şeytan balaca Ağılın tez qarşısını aldı və dedi:



– Verin balacanı biz saxlayaq, istəklərinizi ödəməyə çəkinməyin. Onsuz da həyata bir dəfə gəlirik, hər şeyin dadına baxmaq lazımdır.



Şeytanın bu sözləri Xəyanəti daha da həvəsə gətirdi:

– Gedək, sizin üçün Maraqlı nə varsa, hamısına qonaq etməyə hazıram.

Xəyanət Şeytanın qulağına pıçıldayaraq əlavə etdi:

– Ehtirasın otağı hazırdır?

– Əziz Xəyanət və Maraq, siz gedin, balaca Ağıl yanımda qalacaq, sizə mane olmamasını balaca Ağıla tapşıracağam. Yetər ki, Maraq gedib Xəyanətlə birlikdə Ehtirasın otağına girsin.



Xəyanət Marağın əlindən tutdu və onu Ehtirasın otağına apardı.

## *3.7. Şeytan və Ağıl*

Axşam olsa da, Maraq hələ də Xəyanətin yanından ayrılmamışdı. Şeytan öz məqsədinə çatdığı üçün sevinirdi. Ağıl Vicdan ilə söhbətindən sonra qazandığı sərvətə əvvəlki kimi baxa bilmirdi.Vicdanın yaraladığı yer hələ də ağrıdırdı.

Şeytana baxaraq soruşdu:

– Şeytan, səncə insanları aldadıb pul qazanmağa davam etməklə düz edirik?

– Belə şeyləri düşünsən indiki zamanda pul qazana bilməzsən.



– Bəs Zəhmət? – Ağıl sual verdi.

– Zəhmət əvvəllər dükanımda işləyirdi. Çoxçalışqan biri idi, heç vaxt haram qazanmaq istəməzdi. Sonra baxdım ki, Zəhmətlə çox qazanmaq olmur, onu qovub Ölümü dükanıma aldım.

Şeytan bunu demişdi ki, içəri bir nəfər daxil oldu.



– Adım Güvəndir, həyat yoldaşım Marağı axtarıram. Bu gün səhər evdən çıxıb, hələ də evə qayıtmayıb.

Şeytan dilləndi:

– Güvən, kimi deyirsən, hər şeylə Maraqlanan o qadını? Nə bilirsən, bəlkə də kiminləsə sənə Xəyanət edir?

Güvən cavab verdi:

– Yox, Maraq elə bir şey eləməz.

– Əminsən? Bəzən gördüklərimizə inana bilmirik.

Şeytan bunu demişdi ki, içəridən Xəyanət və Marağın çıxdığını görən Güvən özünə yer tapa bilmədi. Güvən sarsıldı. Daha onların xoşbəxt ailəsi əvvəlki kimi ola bilməzdi.

## ***Bölüm 4.1.***

## *Ağıl və Həqiqət*



Ağıl dağılan ailəni görüb vaxt ötdükcə balaca Ağılın böyüyüb Həsrət olacağını anlamışdı. Zaman hər kəsdən getdikcə uzaqlaşırdı. Buna görə də Ağıl bir müddət sonra anladı ki, Həqiqət öldükdə o da öz uşaqlığını xatırlayıb Həsrətə dönəcək. Axşamların birində dükandan gizlincə çıxaraq köhnə ailəsinin yanına, Həqiqəti görməyə getdi.

Evin önünə kimi gəlsə də qapını aça bilmədi. Utandığından nə edəcəyini bilmirdi. Başını aşağı salaraq yerə baxdığı zaman kiminsə dərviş mahnısı oxuduğunu eşitdi:

***Havanı ciyərlərimə çəkmək əvəzinə,***
***Əlimdəki siqareti bitirmişəm,***
***Çəkdiyim xəcalətimdən...***

***Yağışlı, palçıqlı məkanda,***
***Günahlarla nəfəs alanda...***
***Üstümüz kirlənirsə bir anda,***
***Pislik etdiyimiz zamanda,***
***Vicdanım ola bilməz təmiz.***



Oxuduğu mahnını bitirib Ağıla sual verdi:

– Heç utanıb yerə girirsən?



Ağıl başını qaldırıb baxdı. Qarşısında saçlarına dən düşmüş bir kişi gördü. Onu tanımadığı üçün soruşdu:

– Bağışlayın, siz kimsiniz?



– Adım Xəcalətdir. Xəcalət çəkməkdən saçlarıma dən düşüb. İndi dərvişlik edirəm.

Ağıl sual verdi:

– Məndən nə istəyirsiniz?

– Hər şeydən xəbərim var. Nəysə, az danış, səsindən adamın lap başı ağrıyır. Keçək içəri. Özün də içəri keçəndə başını qaldırıb yuxarı baxma.

Xəcalət bunu deyib Ağılın yaxasından tutdu və qapını açaraq içəri keçirtdi.

## *4.2. Ağıl və Həqiqət*



Həqiqət bir az daha yaşlanmışdı. Kədərli bir şəkildə oturub boş divara baxırdı. Qapı açıldığı zaman Ağıl ilə bərabər Xəcalət də otağa daxil oldu. Həqiqət onun gəlişinə çox sevinəcəkdi ki, içəri daha bir nəfər daxil oldu. Yaşlı bir uşaq özünü təqdim elədi:



– Mənim adım Şübhədir. Həqiqət, sənə nə olursa, az olur. Səni atıb getdiyi az deyil, hələ bir onu qucaqlamaq da istəyirsən? Nə bilirsən hansı məqsədlə gəlib? Ona inanma.

Ağıl içəri girən adamın nə dediyini anlamadı:

– Sən nə danışırsan, Necə yəni nə məqsədlə?



Ağıl sözünü bitirməmiş Xəcalət onu çimdiklədi:

– Danışmağa hələ dilin də var?

Ağıl susdu. Şübhə qapının yanından keçib Həqiqətə bir az da yaxın gəldi:

– Ona inanma, Həqiqət. Bir dəfə aldadan yenə aldadar.

Həqiqət Şübhə ilə birlikdə sual verdi:

– Niyə gəlmisən?

Ağıl nə deyəcəyini bilmədi:

– Peşmançılıqdan siqaret əvəzinə xəcalət çəkirdim. Günahkaram, nə desən azdır. Bura gəlməyə də məni Vicdan məcbur etdi.



Həqiqət düşündü:

– Vicdannn... – Allahsızlar şəhərinin tanrısı – üzünü Şübhəyə tərəf çevirərək – Get Vicdanı çağır, gör gələcəkmi?



Şübhə dedi:

– Məncə gəlməz, amma yenə də çağıraram.

## *4.3. Ağıl və Həqiqət*

Şübhə geri qayıtdığı zaman Vicdanı da özü ilə birlikdə gətirə bilmişdi. Vicdan keçib Həqiqətin yanına əyləşəndə belindəki xəncəri çıxardıb stolun üstünə qoydu və dedi:

– Həə, indi danışaq.



Ağıl bir qədər düşünüb danışmağa başladı:

– ***Yaşadığımız mühit və seçdiyimiz çevrə, birbaşa bizim həyatımızı dəyişir. Şeytanın yanında qaldığım müddətdə bunu dərk etdim ki, İnsanlar heç kimə görə dəyişməyəcəklərini düşünürlər. Bunun uğrunda mübarizə aparırlar. Amma Şeytan onları özlərindən xəbərsiz dəyişməyə davam edir. Onlar da düşünürlər ki, bütün seçimləri özləri edib.***



Həqiqət sual verdi:

– Bəs biz neyləyə bilərik?



– ***Öz çevrəmizi yaratmalıyıq, – Ağıl dərindən nəfəs aldı və dedi, – Çevrəmizə ağlı başında insanları seçməliyik ki, Ağlı başında insanlar dünyanı dəyişdirsinlər.***

Vicdan sual verdi:

– Səncə bunu etmək asanmı?

– Heç nə asan deyil, bədəlini ödəməli olduğumuz Zəhmət var. – Həqiqət dedi və sözünə davam etdi:

– İnsanları Şeytandan uzaqlaşdıra biləcək bir şey düşünmək lazımdır.

Ağıl kədərli halda bildirdi:

– Bir fikrim var. Öz dükanımızı açmalıyıq.

– Necə yəni öz dükanımızı? – Həqiqət anlamadı – Şeytanın etdiklərini edək?

– Xeyr, biz Həqiqətləri yayacağıq. Dünyanın hər yerindən bilgiləri bir yerə toplayacağıq.

Vicdan anlamadı:

– Bəs bunu necə etməliyik?





Ağıl gülümsədi:

– Kitablarla. Ancaq kitablar sayəsində insanlar əsl Həqiqətə çata bilər.



Həqiqət Şübhə ilə Ağıla baxdı. Şübhə Onun dediklərini dinlədikcə bir az daha geri çəkilərək dedi:

– Bu heç ağlıma gəlməmişdi. –

Həqiqət gülümsədi. O, Ağılın geri qayıtmasına çox sevinirdi. Artıq onların da bir dükanı olacaqdı. Daha onlar da Şeytana qarşı mübarizəyə başlayacaqdılar.

## ***<u>Bölüm 5.1</u>***

### *Şeytanın Həmləsi*

Günlərin bir günü Şeytan televizora baxarkən Ağıl və Həqiqətin açdığı dükanı gördü. O, dükanı öz gözləri ilə görmək üçün pencəyini geyinib evdən çıxdı.

Dükanın qapısından içəri girdikdə hər yer kitablarla və insanlarla doluydu. Ağılın yanına yaxınlaşmaq istəsə də onun müştərilərlə məşğul olduğunu gördü. Seyrəklik yaranmasını gözləmək üçün dayanıb kitabları vərəqləməyə başladı. Gördüyü qədəri ilə dükan heç də pis işləmirdi.

Növbə bitən kimi şən əhval-ruhiyyə ilə Ağıla yaxınlaşdı:



– Salam, Ağıl, yeni iş yerinə baxıram, yaxşı işləyirsən. İnsanlara Ağıl verirsən. Amma diqqətli ol, özünə də bir şeylər saxla...

Ağıl Şeytanı görən kimi yenidən gözləri qamaşdı. Sanki bir anın içində dəyişdiyini hiss etdi. Şeytan sual verdi:

– Nə satırsan?



Ağıl dedi:

– Kitab.

– Kağız parçasını oxumaqdan kimsəyə xeyir gəlməz.

Ağıl əhval ruhiyyəsini pozmadan dilləndi:

– İnsanlar Həqiqətləri öyrənmək istədikləri üçün bu kitabı oxuyur.



– Lənət olsun belə Həqiqətlərə. Axı niyə camaatın işinə burnunuzu soxursunuz?



Arxadan Həqiqətin səsi eşidildi:

– Çünki yalanlarının daha çox insanı aldatmasını istəmirik.

Şeytan dilinin altında mızıldandı:

– Mən də çox şey istəyirəm. Sən lap çoxunu istəyirsən.

Həqiqət dedi:

– Sus! Sənə görə Güvən Nifrətə çevrilib. Hər kəsi Yalanlarla bəzəyirsən. İtil burdan!

Şeytan gülərək:



– Amma məni qova bilməzsən... Sən axı, mən deyilsən...

Şeytan bunu demişdi ki, dükandakı bütün oxucular ona baxdı. Hər biri ona yaxınlaşaraq qışqırmağa başladı:

– Biz kitablarla Həqiqətə çatacağıq.

Şeytan onun üstünə gələnləri görüb geri çəkildi və öz dükanına doğru qaçdı...

### *5.2. Şeytanın Həmləsi*

Həqiqət və Ağılın açdığı dükan bir müddət sonra "Allah Şəhərinin" ən tanınmış dükanına çevrildi. Hətta Ölümün dükanı da ona çata bilmirdi. İnsanlar pis vərdişlərdən uzaqlaşaraq kitablara, yəni Həqiqətə yaxınlaşır, Şeytanın insanları necə aldatdığını yaxşı başa düşürdülər.

Şeytan Ölüm ilə birlikdə öz dükanında oturmuşdu. Ölüm çox kədərli görsənirdi. Cəsarətini toplayıb Şeytana dedi:

– İşlərimiz əvvəlki kimi getmir. Deyirəm, bəlkə daha dükanımızın adını dəyişək? İnsanlar məni günahlandırırlar. Halbuki, mən sadə işçiyəm.

Şeytan dedi:



– Az danış! Özün yaxşı bilirsən, indiki zamanda iş tapmaq çətindir. Sakitcə malını sat, işinlə məşğul ol!

Şeytan ayağa qalxdı:

– Belə olmaz. Xəyanət və Marağın çıxartdığı hoqqalardan sonra daha insanlar bizə Güvənmir. Elə bir şey etməliyik ki, insanlar bizə inansınlar.

Ölüm arxadan səsləndi:

– Biz nə edə bilərik?

– Elə bir şey edəcəyəm ki, insanlara ağır zərbə vurub onların beynini qarışdıraraq Ağılı ələ keçirəcəyəm.



Şeytan nəfəsini dərdi və sözünə davam etdi:

– Artıq dükanımız çox getməz.



Ölüm Şeytanın beynində hansı fikirlərin döndüyünü anlamadı:

– Danış, görək ağlında nə fikirlər var?

– Öz kitablarımızı yazıb onların sayəsində insanların beynini qarışdıraraq hər kəsin güvənini qazanacağıq. İnsanlar güvənəndə düşünməyi unudurlar. Düşünürlər ki, Güvən varsa, hər şey düzgündür.

Deyirəm, yazmağa başla:

1. Qiyamət günü pis insanın maska taxıb etdiyi yaxşılıqlar, savaba yazılmayacaq...

2. Milyonlarca insanın ölüm fərmanını verən adamın evində saxladığı köpəklər kimiyik.

3. O bizə yaxşılıq edildikcə dünyanın ən yaxşı insanı olduğunu düşünürük. Və o, iplərimizi əlinə alıb bizi oynatmağa başlayır. Yemək, dən və su verir. Sonra gözəl və günəşli günlərin birində başımızı kəsir.

4. Biz pullu insanların cibini sevən kasıblar kimiyik.

5. Hər kəsin bizi sevməsi üçün maska taxıb gəzən insan bizik.

6. Biz kimliyimizi axtaran və tapdığımız zaman onu gizlədən insanlar kimiyik. Özümüzü tanıdığımızı düşünsək də əslində, kim olduğumuzu və hələ də, nəyə qadir olduğumuzu hələ bilmirik.

7. O, bizik. İnsan ruhunun ən böyük xisləti, bizim bir parçamızdır. İnsan ruhunun ən böyük günahı, xeyir verəndə özünü yaxşı insan sayan, pislik edəndə bunu gizlədən həmin insan bizik.

8. Biz sevəndə onunla kifayətlənə bilməyib xəyanətlər edən aşiqlərik. Xəyanət etdiyimiz zaman özümüzü yox, Şeytanı söyən o insanıq.

9. Biz Şeytanı yaradan insanıq. Şeytan içimizdə gizlənib, yanımızda günaha batmaq istəmir.

10. Biz kimik? Hələ də şəxsiyyətini axtaran, tapdığı zaman özü-özünə nifrət edən, amma özündən qaça bilmədiyi üçün başqalarına nifrət edib Eqosuna sığınmış insan bizik.

Ölüm üzünü turşutdu:

– Yazdığın bu qanunlar bəşəriyyətə çox zərbələr vuracaq.



Şeytan dərindən nəfəs aldı və dedi :

– Bu qanunları mən yazmamışam. Tədqiqatlarım bunları deməyə əsas verir.

Şeytanın qapıdan çıxdığını görən Ölüm qışqırdı:

– Dayan, hara belə?!

Şeytan qapının arxasından cavab verdi:



– Gedim Böhtanı çağırım gəlsin. Böyük planlar hazırlamışam.

## 5.3. Şeytanın Həmləsi



Günlərin bir günü Həqiqətin dükanın qarşısına uzun saçlı, qara gözlü bir qadın yaxınlaşdı. Qadın çox gözəl idi. Gözlərinə baxan kimi baxışlarındakı Eşqi görə bilərdin. Kədərə qərq olmuş siması ilə qapını açaraq içəri daxil oldu. Kitablara baxaraq irəli doğru addımladı. İçəridə çox adam görsənmirdi. Bir az daha qabağa gəldiyi zaman Ağıl onu tanıdı:

– Eşq, xoş gəlmisən, nə yaxşı gəldin?



Eşq gülümsədi, amma heç nə demədi. Əzgin olduğu hiss olunurdu. Nəfəsini dərdi və sözə başladı:



– Yaxşı olmağa çalışıram, heç nə qaydasında getmir. Sanki Xəyanətin mənə qarşı Marağı azalıb.

Ağıl onun bu sözünü eşidib qəlbi titrədi. Bunu necə deməli olduğundan əmin deyildi.

– Bir şey demək istəyirəm. Xəyanəti sevməyə məcbur deyilsən.



– Məcburam. Bizlər bizi sevəni yox, sevməyəni sevməyə məhkumuq. Bəlkə də o sevsəydi, mən yenə məni sevməyən başqa birinə aşiq olardım.

– O səni aldadır!

Sevginin bir anda siması dəyişdi. Sanki soyuqlaşıb buza döndü. Kədərli bir səslə dedi:

– Bilirəm.



Ağıl soruşdu:

– Bu sevginiz necə başladı?

Eşq keçmişi yadına salaraq dilləndi:

– Gəncliyimdən bəri onu sevmişəm. Amma eyni zamanda məni həqiqətən sevən başqaları da var idi. Bilmirəm, mənə digərləri maraqlı deyildi. Xəyanət məni sevsə də, digərləri ilə də görüşdüyünü bilirdim. Bu Qısqanclıq hissi yaradırdı. Məndən başqasına aid olmasını qəbul edə bilmirdim.

Ağıl düşündü:

– Deməli budur Qısqanclıq?



– Qısqanclıq, bu bacımın adıdır. O həmişə məni idarə edib. Ən balaca vaxtımızdan bütün söz-söhbətlərimizə o səbəb olur.

– Qısqanclığı sevməsəm də, o həmişə yanımda olub.

Ağıl Eşqə bir az daha yaxın gəldi:

– Bir şeyi yaxşı yadında saxla. Əgər xoşbəxt olmaq istəyirsənsə, sən sevənlə yox, səni sevənlə birlikdə olmalısan.



– Təəssüf ki, insanlar bunu bacarmır. Bir müddət sonra biz qarşımızdakı insanın sevgisindən doyuruq.

– Düşünürəm ki, dediyin şeyi çox adam bacarmaz.

– Buna görə də çox adam xoşbəxt deyil.

Eşq sual verdi:

– Nə məsləhət görürsən, neyləməliyəm?

Ağıl dedi:

– Ayrıl ondan!



– Yox, camaat nə deyər?! Qonşuluqda Qınaq adında bir ailə var. Onların dilinə düşmək istəmirəm. Hələ onların uşaqları, özlərindən də betərdir. Adı Şayiədir. Hər yerdə ağzına gələni danışıb el-aləmə rüsvay eləməyə adam axtarır.

Ağıl onun sözünü təkrar edərək sual verdi:

– Qınaqlar... axı nəyə görə başqalarının sözlərinə, nələr danışdığına əsir olaraq yaşamalısan? Bu xoşbəxtliyindən daha vacibdir?



– Dediklərini dinləsəm də, bunu bacarmıram. Adım Eşq, soyadım Sevgi, atamın adı Ürəkdir. Başa düşürsən məni? Hər zaman Ürəyin səsinə qulaq asmışam. Öz fikirlərim olmayıb. Ürək nə istəsə, onu eləməyə məcbur qalmışam.

Eşq bunu deyib kövrəldi və gözündən yaş axıdaraq qapıdan çıxdı.

Ağıl onun arxasınca getmək istəyərkən arxadan Həqiqət onu səslədi:



– Dayan, Ağıl, getmə. Sevginin yanına getsən də, bir-birinizi heç vaxt başa düşə bilməyəcəksiniz.

– Nəyə görə, ata?

– Ağılın Eşqi başa düşdüyü harada görülüb? Eşq sevəndə gözləri kor olur. Kaş ki, Eşq Ağıl ilə evlənəydi. O zaman özünə layiq olmayan insanlara məxsus olmazdı.



Amma nə edək, bu seçimi özü edib. O da digər insanlar kimi onu sevəni yox, öz sevdiyinin arxasınca getmək istəyib.

## 5.4. *Şeytanın Həmləsi*

Aradan uzun vaxt ötməmişdi. Həqiqət və Ağıl dükanda satışlarına davam etdiyi vaxtların birində içəri bir nəfər daxil oldu. Həqiqət gələn təhlükəni hiss etməyə başlamışdı. İçəri daxil olan adam gözləri ilə hər tərəfi süzdü. Təmkinini pozmadan Həqiqətə doğru yaxınlaşdı. Həqiqət ona tərəf gələn adama diqqətlə baxaraq sual verdi:

– Buyurun, necə kömək edə bilərik?



Adam dərindən nəfəs alıb başını buladı, qarnını bir az da içəri yığmağa çalışaraq:



– Nəzarət Yoxlama Məntəqəsindən gəlmişəm.

Ağıl özünü saxlaya bilməyib daha da yaxınlaşdı:

– Nəyi yoxlayacaqsınız?



– Şikayət bəy yanımıza gələrək haqqınızda ərizə yazıb. Dediyinə görə sizdə zərərli maddələr var.



Həqiqət vəziyyəti anlaya bilməyib daha da özündən çıxdı:

– Kim şikayət edib? Nə danışırsınız?

Nəzarət bəy onu sakitləşdirməyə çalışaraq:

– Səsinizi qaldırmayın. Əks halda Əsəb bəyi bura çağırıb əllərinizə qandal vurdurmalı olacağıq.

Həqiqət dedi:

– Heç kimə ziyanlı bir şey verməmişik. Bu vaxta qədər zərərli maddələri satanlara göz yummusunuz.

– Vətəndaş, zəhmət olmazsa, problem yaratmadan Nəzarət məntəqəsinə gedək. – Deyərək Həqiqətin özü ilə gəlməsini tələb etdi.

## Bölüm 6.1.

### *Məhkəmə*



Həqiqəti məhkəmə günü Ədalətin qarşısına əlləri qandallı vəziyyətdə çıxartdılar. Məhkəmə hakimi olan Ədalət əlindəki çəkiclə masaya vuraraq sözə başladı:

– Zəhmət olmasa sakitliyə riayət edək....

Ədalət Həqiqətin gözünün içinə baxaraq sözünə davam etdi:

– Ədalət Məhkəməsinin mənə verdiyi səlahiyyətə əsasən günahkarın dindirilməsini açıq elan edirəm. Özünüzü təqdim edin. Danışın görək, kimsiniz?



– Mən Doğruyev Həqiqət Dürüst oğlu. Oğlum Düşüncəyev Ağılla bərabər bir kitab dükanı açıb bütün Həqiqətləri insanlara çatdırmağa çalışırdıq.

Ədalət Həqiqətin sözünü kəsərək əlindəki çəkici masaya vurdu:

– Dayanın görüm, vətəndaş, oğlunuzun soyadı sizin soyadınızla üst-üstə düşmür.

– Çünki onu 14 yaşında ikən tapmışam. Ona bütün bildiyim Həqiqətləri öyrətmişdim. Baxan kimi onun böyüdüyü zaman Ağıl olacağını anlamışdım. O, həqiqətən də böyüdükcə çox Ağıllı biri olurdu. Amma düşündüyüm kimi ümidlərimi doğrultmadı. Təəssüf ki, o böyüdüyü zaman fikirlərini dəyişib Ölümün dükanında qalaraq Şeytanla bərabər çalışmağı seçdi.

Ona mane olmağa çalışdım. Onun kimi bir çox gənclər var ki, öz Həqiqətlərini axtararkən o qazanda boğulublar. Kimisi əxlaqsız qadına, kimisi ədəbsiz kişiyə çevriliblər.

Və bunlardan ən pisi odur ki, vaxtı ilə oğlumun etdiklərini özüm təkrarlamışam. Keçmişdə etdiyim səhvləri unudaraq özümün belə olmadığını düşünürəm. Budur acı reallıq, bir vaxt gələcək ki, bu dünyadan köçəcəyəm, oğlum isə Həqiqətə çevriləcək. Həbs olunsam da, Həqiqətləri yaymaqdan heç bir zaman usanmaram.

Həqiqətin sözü bitdikdən sonra Ədalət sözünə davam etdi:

– Sözünüz bitdisə yerinizə əyləşin. Növbəti Şahidi məhkəmə zalına dəvət edirəm.

Yaxınlaşın, xanım Böhtanova. – Hər tərəfini ülgüc ilə doğramış bir qadın yaxınlaşaraq insanlara baxdı. Üzünü Ədalətə döndərərək gözlərini yumub ağzını açdı:

## 6.2. *Məhkəmə*

– Mən Böhtanova Şər İftira qızı. Bütün ömrüm boyu insanlara Şər yaxan, onların gələcəyini əlindən alaraq həyatlarını qaraldan mənəm. Sayəmdə insanları etmədikləri işlərdən ötrü günahlandırırlar.



Haqsızlığa qarşı çıxan adama şər-böhtan atılmalıdır. Birini ləkələmək lazım olduğu zaman hamıdan öncə özümü ortaya atıb etmədikləri işi onların boynuna yıxıram. Təbii ki, bu saydıqlarım bir deyil, iki deyil, mən təmiz biri deyiləm. Lakin bir zamanlar çox təmiz biriydim, Həqiqətin yanında dayanıb ona dəstək olurdum.

Bağışlayın, bunu etməsəm, bu Böhtanı mənim özümə atmalı olacaqlar. Mən günahkaram... buna görə də Həqiqət həbs olunmalıdır.

Sözünüz bitdisə, yerinizə əyləşin. – Ədalət əlindəki vərəqə baxaraq dedi:

– Cənab Həyasızov gəlsin.

## *63. Məhkəmə*

Deyilən adam kürsüyə çıxan kimi danışmağa başladı:



– Həyasızov Abırsız... Abır həya qalmayıb indiki dövrdə. Mən həmin o kəsəm ki, qızlar mənə görə normal yollarını gedə bilmir. O abırsızam ki, insanların arxasınca danışmaqdan yorulmuram. Üzərimdəki paltarın bu qədər səliqəli olduğuna baxmayın, bunun Abır-Həya ilə bir əlaqəsi yoxdur, Abırsızın yekəsiyəm. Mən o abırsızam ki, insanların malında-mülkündə gözüm var.

Həqiqət ona görə günahkardır ki, insanlar vaxt getdikcə Abır-Həyalarını itirib mənə çevrililər. Elə buna görə də Həqiqət günahkardır.

Abırsızov Həyasız yerinə əyləşdikdən sonra Ədalət təkrar vərəqinə baxdı. Bu adlara baxdıqca öz-özünə düşündü. Kaş ki, insanların yaşadıqları dünyada da adlar insanların əsl kimliyini ifadə edə bilsəydi. Amma belə deyildi. İnsanların yaşadıqları dünyada əməllərinə layiq olmayan insanlar saxta adlar alır, layiq olanlar isə bir qıraqda qalaraq dəyərləri bilinmirdi. Amma zaman vasitəsi ilə bu cür insanlar gec də olsa layiq olduqları ada qovuşur, saxta insanlar isə silinib tarixdən yox olurdular.

Hakim bir anlıq dalmış olduğu düşüncələrindən ayrılaraq növbəti şəxsin adını oxudu:

## 6.4. Məhkəmə



– Cənab Saxtayev, buyurun, söz sizdədir.

Saxtayev Uydurma ayağa qalxıb qolundakı saxta saata baxdı. Saxta saatı da özü kimi düzgün işləmirdi. Buna baxmayaraq bu gün Həqiqətləri danışmalıydı:

– Saxtayev Uydurma Yalan oğlu. İlk başda atamdan danışmaq istəyirəm.

Yalan, doğrunu bildiyimiz halda deyilmiş yalnış sözlərdir. Ancaq Yalan sayəsində insanları aldadıb, onlara səhv olduğunu bildiyimiz halda vədlər verə, yalanlarımızla çox şeyin üstünü örtə və ya şişirdib böyüdə bilərik. Atam Yalan içində bir çox mənaları saxlayır.

Yalan pis niyyətlə uydurma şeylər yaradıb saxta Həqiqət yaratdı. Yəni məni... Biz insanları aldadıb Həqiqətləri onlardan gizlədərək saxladıq. Desəniz ki, "insan nəyə görə Yalan danışır", deyərəm ki, "mühit onu yalan danışmağa vadar edir". Yalan danışdıqca Həqiqətlərdən uzaqlaşıb Yalana çevrilirik.

İlk başlarda yalan danışmaq xoşumuza gəldiyi üçün insanları aldatmağa başlayırıq. Həqiqət ona görə günahkardır ki, bizə doğruları deməyə şərait yaratmayıb. Dörd divar arasındakı qız ailəsindən qorxduğu üçün oğlanla danışdığını deyə bilmir, amma həmin qızın qardaşı başqa bir qıza Yalan danışaraq onu aldadır. Həqiqət ona görə günahkardır ki, susub. O, susduqca biz Yalan danışmağa davam edirik.

Ədalət hər kəsin Həqiqətə qarşı olduğunu görüb dilləndi:



– Bəsdirin, məgər Həqiqətə bu qədər nifrət edirsiniz? Hər zaman Həqiqət axtarırsınız, amma Həqiqətə çatanda onu qəbul edə bilmirsiniz. Yalanlarla, Böhtanlarla, Abırsızlıqla özünüzə bir dünya yaratdığınız üçün ondan qorxub gizlənirsiniz.

Həqiqəti tapmaq istəmirsiniz. Sadəcə olaraq Həqiqəti axtarmaqdan xoşunuz gəlir. Buna görə hər zaman burnunuzu sizə aid olmayan işlərə soxursunuz. – Ədalət kədərli bir şəkildə əlavə etdi – Elə buna görə də Həqiqət hər zaman sizlərdən gizlənib. Gizlənib ki, onu axtarasınız. Və tapdığınız zaman sizə sərf etməyən şey olanda, ondan gizlənəsiniz.

## *65. Məhkəmə*

Ədalət son olaraq vərəqdəki 16 yaşlı qızın adını oxudu:

– İnsanların dünyasında çox qala bilməyən xanım İntiharovanı kürsüyə dəvət edirəm. Zəhmət olmazsa, buyurun.

Balaca qız hər kəsdən qorxaraq kürsüyə çıxdı. İnsanlara olan güvənsizliyi hiss olunurdu. Buna baxmayaraq, danışmaq istəsə də, bunu bacarmırdı. Onu bu yola sürükləyən cəmiyyətdən danışmaq istəyirdi.Özü də bilmirdi, danışsın, yoxsa sussun.

– Danış, qızım, hər kəs səni dinləyir. – Ədalət qızcığaza baxaraq dedi. Düşündü ki, danışa bilər. Nə də olsa, artıq insanların



dünyasında yaşamır. Burada hər kəs onun səsini duya biləcək. Dedi:

– Mən İntiharova Ölüm Özünəqəsd qızı. Mənə bu adı qoydular, amma İntihar etmək istəmirdim. Əslində, İntihar yox, məni insanlar öldürdü.

O qədər kor oldular ki, vaxtında görə bilmədilər. Mənim sadəcə bir arzum var idi. Dünyadan uçaraq uzaqlaşmaq. O anda mən bunu istəyirdim. Qanadlarım olmasa da, mən uçub qaça bilmək üçün o pəncərəyə çıxmışdım.

İntihar etməyin çox böyük günah olduğunu deyirlər, bəs insanları intihara sürükləmək nəyə görə günah sayılmır? Mən o məktubu İntihar etmək istədiyim üçün yox, yaşamaq istədiyim üçün, mənim kimi yaşamaq istəyən, yüzlərcə insan üçün yazmışdım. Mənim sadəcə bir arzum var idi. Çıxıb getmək. Oysa ki, dünyanın günahlarına sığmayacaq qədər təmiz idim. "Həqiqət günahkardır, çünki susub."

Doğrudanmı belə düşünürsünüz? Bəs elə isə, siz niyə susmusunuz? Susmuram, siz də susmayın. Mənim kimi neçə uşaq var ki, uğursuz ailənin uşağı sayılır?! Cənab hakim, məncə, Allah da, bizi çox günahkar yaradıb. Qaçıb getmək üçün bizə qanadlar verilməyib.

Yaxşı düşünün, hər kəs Həqiqətləri axtarır, amma o, gözlərinizin qarşısındadır. "Həqiqət yoxdur" deməklə onu daha da öldürürsünüz. Onu yaşatmaq öz əlimizdədir. Biz doğruları

dedikcə o yaşayacaq, yalan danışdıqca onu biz öldürəcəyik. Məncə Həqiqət deyil, sizsiniz günahkar. Doğruları gizlətdikcə bu günahlarla da yaşamağa davam edəcəksiniz.

Məhkəmə hakimi qabağındakı fincandan bir qurtum su içib sözünə davam etdi:

– Son olaraq, Həqiqətin lehinə və ya əleyhinə danışmaq istəyən yoxdursa, Ədalət Məhkəməmizi yekunlaşdırmaq istəyirəm.

Bu zaman arxadan bir səs eşidildi:

– Dayanın, deyəcəklərim var. – Hamı çevrilib arxaya baxdı. Ağılın yanında oturan Xəcalət ayağa qalxdı. Hər kəs onun nə deyəcəyinə diqqət yetirdi.

## *6.6. Məhkəmə*



– Mən Xəcalətəm. Amma özünüzə sual vermisinizmi, kimdir və nədir Xəcalət? İnsan nə zaman Xəcalət çəkir?

Biz o zaman xəcalət çəkirik ki, utanıb, peşman olub özümüzü borclu hiss edirik. Bu borcu yerinə yetirə bilmədiyimizçün özümüzü günahlandırırıq. Baxmayaraq ki, günahkar olsaq da bizdən asılı olmayan səbəblərə görə utanmalı oluruq.

Həqiqət tutulub susdurulduğu üçün Xəcalət çəkirik. Çünki biz onu xilas edə bilmirik. Hər kəs acı da olsa, Həqiqətlə barışmalıdır. Həqiqəti gizlətməklə xoşbəxt olduğumuzu düşünə bilərik. Yalan ortaya çıxıb bizə həyatın əsl üzünü göstərənə qədər yaşayarıq. Bu zamandan sonra çox az insan əsl Həqiqətə çatacaq. Bu hər zaman belə olub, Yalan yolu ilə getməyib öz cığırı ilə addımlayanlar Həqiqətə çevriləcək. Ona çatanlar Həqiqətin özü olacaqlar.

Ədalət bəy, son olaraq deməliyəm ki, bəlkə də Həqiqət əsl zirvədir. O zirvəyə qalxmaq üçün yollar 1 deyil, 2 deyil. Bizim danışdıqlarımız da o zirvənin başqa bir cığırıdır. O cığırın yola çevrilməsi üçün Ədalətli bir qərar verməyinizi gözləyəcəyik.

Xəcalət bunları deyib yerinə əyləşdi. Son olaraq Ədalət çəkici əlinə alaraq yekun qərarını verdi.

## *6.7. Məhkəmə*



– Ədalət Məhkəməsinin mənə verdiyi səlahiyyətə əsasən, Həqiqət bəyi ömürlük azadlıqdan məhrum edərək onu gizlətməyə qərar verirəm. Əgər onu tapmaq istəyən olsa, sizin üçün onu parçalara bölüb hər parçasını bir kitabın içində gizlədəcəyik. Hansı kitabda böyük, hansı kitabda kiçik parça olacaqsa bu onu yazan yazarın payına düşəcək. Narahat olmayın, biz Həqiqəti bir dəfəlik yer üzündən silmirik, bunu bacarmarıq. Həqiqətin bir parçasını, yəni onun baş daşını "Allahsızlar Şəhəri"nin əziz xatirəsi kimi İnsanların yaşadığı dünyaya bir kitab yollayacağıq.

**Hökm verilmişdir!**

## *6.8. Məhkəmə*

Artıq Məhkəmə bitmiş, bütün "İnsani Keyfiyyətlər" zalı tərk etmişdi. Pəncərə açıq olduğundan küləyin vıyıltısı, yağışın şırıltısı musiqi notları kimi əsərin sonlarını yaradırdı. Təəssüf ki, bu sakitçiliyi pozan bir şəxs tapılmalıydı. İçəri daxil olaraq telefonu cibindən çıxardıb kiməsə zəng etdi:



– Alo, mənəm - Hörmətov Rüşvət. Lazım olanlar danışdılar, Ədalət bəy də sağ olsun, lazım olan qərarı verdi. Narahat olmayın, bu işin üstü açıla bilməz. Çox sağ olun, təşəkkür edirəm. Əlbəttə, öz payıma düşəni alacağıma çox sevinirəm.

Rüşvətin içindəki qalibiyyət hissi bu dünyaya hələ çox zərbələr vuracaqdı. Son olaraq içindəki sualını soruşdu:

– Şeytan bəy, mənə sadəcə maraqlıdır, indi hardasınız?

Eşitdiyi cavab Rüşvəti şoka saldı:

– Səyahət hava limanında?! Xeyr, heç bir şey. Düşündüm ki, hal-hazırda buradasınız. Necə yəni...? Burada olmasanız da olub bitən hər şeydən xəbərdarısınız? – təəssüflə bildirdi:

– Gözəl istirahətlər arzu edirəm....

Deyərək telefonu söndürdü və dilinin altında mızıldandı:

– Biz burada işləyib əziyyət çəkək, sən də Səyahətə çıx, istirahətindən qalma....

***Hanı Ədalət...?***

***Hanı Həqiqət...?***

## *Bölüm 7.*

## *Epiloq.*

Nağılı dinləyən uşaq gözləri dolmuş halda babasına dedi:

– Dayan, baba, Nağıllar belə bitə bilməz.





– Xeyr, bala, yaşadığımız dünyanın reallıqlarında nağıllar bu cür bitir. Hətta bu da hələ son deyil.

– Necə yəni son deyil? Bəs sonu nə zaman olacaq?

Babası gülümsədi:

– Biz axı necə bilə bilərik ki, son nə zaman olacaq? Başa düşürəm, bəlkə də, indi, nə dediyimi anlamağa çalışırsan. Gedək hər şeyi izah edəcəyəm.

Baba nəvəsinin əlindən tutaraq onu öz bağçalarına apardı. Uşaq qabağındakı mənzərəni gördüyü zaman gözlərinə inana bilmirdi. Baxçalarındakı ağacların yerində bu dəfə "Allah şəhəri"nin sakinləri dayanmışdı. Hər kəs orada idi. Həqiqət, Ağıl, Xəyanət, Ölüm, Cəsarət, İnam, Xəcalət, Rəzalət, Sevgi, Şəhvət, Ehtiras, Güc, İradə, Zəhmət, Abır-Həya, Yalan. Sadəcə biri görsənmirdi.



Uşaq çaşqınlıqla soruşdu:

– Baba, bəs Şeytan haradadır, niyə görsənmir?

– ***Ona görə ki, o, burada yoxdur, daha doğrusu, o, torpağın altında gizlənib, ruhumuzun içində yaşayır.***



***Burada gördüyün bütün insani keyfiyyətlər içimizdə yaşayaraq "Allah Şəhəri"nin tamamını təşkil edir.***

***Onlardan hansına daha çox bağlansan, həmin özəlliyə çevriləcəksən. İnsanlar öz öv-***

***ladlarına müsbət keyfiyyətlərin adını verərək həmin xüsusiyyətə çevrilməsini istəyir. Amma bir insan yalan danışdığı üçün, xəyanət edib kin saxladığı üçün onları bu adlarla çağırmırlar. Önəmli olan, qəlbində nəyi bəsləyəcəyindir. Biz qəlbimizdə ən çox bəslədiyimiz keyfiyyətə çevrilirik.***

– Baba, bəs Şeytan nəyə görə torpağın altında, yəni bizim ruhumuzdadır?

– Ona görə ki, o torpağa düşən alaq otları kimidir. Bizdən xəbərsiz ruhumuzu ələ keçirməyə çalışır. Öz çayırlarını təmizləmədiyin müddətcə müsbət keyfiyyətlərini bəsləyə bilməyəcəksən.

– Deməli bu hekayənin sonudur?



Baba son sözlərini təkrar etdi:

– Xeyr, əziz nəvəm, axı bu necə son ola bilər? Biz "Allah şəhəri"ni içimizdə yaşadaraq hələ də həyata davam edirik...



# ROLLARDA:

Ölüm – Fikrət Məmmədov
Əyyaş – Fikrət Məmmədov
Şeytan – Namiq Ağayev
Narkoman – Namiq Ağayev
Həqiqət – Kamran Yunis
Qorxu – Kamal Yaşar
Güc – Vüsal Hacı Qədir
Balaca Ağıl – Əli Baloğlanov
Balaca Ağıl – Zülfiyyə Qədirova
Böyük Ağıl – Cavid Aydınov
Xəyanət – İlqar Kamal
Vicdan – Taleh Yüzbəyov
Maraq – Vüsalə Ağayeva
Güvən – Məhəmməd Verdiyev
Xəcalət – İlqar Cahangir
Şübhə – Murad Bağırov
Sevgi – Leyla Allahverdiyeva
Nəzarət – Qurban Məsimov
Ədalət – Rasim Balayev
Böhtanova Şər – Züryet Şahmuradova
Həyasızov Abırsız – Anar Kərimli
Saxtayev Uydurma – Səfa Rəsulov
Hörmətov Rüşvət – Tural Əhməd
Nəvə – Əli Baloğlanov
Baba – Fikrət Məmmədov

# MÜNDƏRİCAT

BÖLÜM 1. ÖLÜM DÜKANI
1.1.Ölüm Dükanı........................................................9
1.2.Ölüm Dükan........................................................12
1.3.Ölüm Dükanı........................................................15
BÖLÜM 2. HƏQİQƏT AXTARIŞLARI
2.1.Həqiqət axtarışları..............................................18
2.2.Həqiqət axtarışları..............................................21
2.3.Həqiqət axtarışları..............................................23
BÖLÜM 3. ŞEYTAN VƏ AĞIL
3.1.Şeytan və Ağıl......................................................27
3.2.Şeytan və Ağıl......................................................32
3.3.Şeytan və Ağıl......................................................32
3.4.Şeytan və Ağıl......................................................33
3.5. Şeytan və Ağıl.....................................................35
3.6. Şeytan və Ağıl.....................................................39
3.7. Şeytan və Ağıl.....................................................43
3.8. Şeytan və Ağıl.....................................................48
BÖLÜM 4. AĞIL VƏ HƏQİQƏT
4.1.Ağıl və Həqiqət....................................................50
4.2.Ağıl və Həqiqət....................................................53
4.3.Ağıl və Həqiqət....................................................56
BÖLÜM 5.ŞEYTANIN HƏMLƏSİ
5.1.Şeytanın Həmləsi.................................................60
5.2.Şeytanın Həmləsi.................................................63
5.3.Şeytanın Həmləsi.................................................68
5.4.Şeytanın Həmləsi.................................................75
BÖLÜM 6. MƏHKƏMƏ
6.1.Məhkəmə.............................................................78
6.2.Məhkəmə.............................................................81
6.3.Məhkəmə.............................................................82
6.4.Məhkəmə.............................................................84
6.5.Məhkəmə.............................................................87
6.6.Məhkəmə.............................................................90
6.7. Məhkəm.............................................................92
6.8. Məhkəmə............................................................93
BÖLÜM 7. EPİLOQ
7.1. Epiloq.................................................................95